# ZÜLFÜQAROV ELXAN QAÇAY OĞLU



29 iyun 1954-cü ildə Füzuli rayonunun Üçbulaq (Hoğa) kəndində anadan olmuşdur. Səkkizillik təhsilini 1969-cu ildə 1 saylı orta məktəbdə almış, orta təhsilini Yevlax şəhərindəki 1 saylı orta məktəbdə bitirmişdir. 1971-ci ildə Mingəçevir Politexnik Texnikumuna daxil olmuşdur. 1972-ci ildə hərbi xidmətə çağırılmış, 1974-cü ildə Ukrayna Respublikasında hərbi xidmətini bitirdikdən sonra yarımçıq qalmış təhsilini davam etdirmişdir. 1975-ci ildə Novosibirsk şəhər Milis Şöbəsinə təyinat alaraq, orada milis baş leytenantı rütbəsinə qədər yüksəlmişdir. 1988-ci ildə Qarabağ hadisəsi ilə əlaqədar vətənə qayıtmışdır. 1992-ci ildə ordu sıralarına qoşularaq, bölmə komandiri kimi Laçın, Qubadlı, Zəngilan, Füzuli bölgələrində bir çox əməliyyat keçirmişdir. Kapitan rütbəsinə qədər yüksələn E.Zülfüqarov 702 saylı hərbi hissədə kəşfiyyat komandirinin köməkçisi vəzifəsinə təyin olunmuş, düşmənin mühüm strateji obyektlərinin aşkara çıxarılıb məhv edilməsində bilik və bacarıq nümayiş etdirmişdir. 1994-cü il yanvarın 4-də o, yenidən kəşfiyyata yollanmış, onun əldə etdiyi məlumatlar əsasında ordumuz rayonun 14 kəndini işğaldan azad etmişdir. 1994-cü il yanvarın 5-də Elxan Zülfüqarov Şükürbəyli kəndi uğrunda gedən qeyri-bərabər döyüşdə onlarla ermənini və hərbi sursatı məhv etmiş, özü isə qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Dörd övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə kapitan Zülfüqarov Elxan Qaçay oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Binəqədi rayonunun Biləcəri qəsəbəsində 25 fevral 2014-cü ildə istifadəyə verilmiş Milli Qəhrəmanlar parkında Elxan Zülfüqarovun büstü ucaldılmışdır.